**Adil Əsədov**
**fəlsəfə elmləri doktoru, professor**

# Nizaminin Xəmsəsi ətrafında fəlsəfi improvizasiyalar: "İsgəndərnamə"

## Müqəddimə

Nizami İntibah şairi idi, ona görə İntibah şairi idi ki, diqqətini tarixin orta əsr qatından irəliyə yönəltmişdi, diqqət mərkəzində daha çox tarixin islamaqədərki qatları və xristianlığaqədərki qatları dururdu: islamaqədərki tarix - Nuşirəvan şah, Xosrov şah, Bəhram şah və xristianlığaqədərki tarix - Makedoniyalı İsgəndər.

Nizami həm də bəşəriyyət tarixində daim təkrarlanan sivilizasiya-mədəniyyət zəncirinin bir həlqəsi idi.

İlk oncə həmin bu sivilizasiya-mədəniyyət zəncirinin özəlliklərinə diqqət yetirək.

Russo bir zaman sivilizasiyadan kənarda qalmış xalqların sivilizasiyalı xalqlara nisbətən daha xoşbəxt və gözəl olduğunu söyləmişdi. Sivilizasiyadan uzaq düşən xalqların idealları o qədər inkişaf etməsə də gerçəkləşmişdi. Sivilizasiyalı xalqların inkişaf etmiş idealları ilə bu ideallardan kənar düşmüş reallıqları arasındakı uçurum dərindir. Bir çox xalqlar öz yaratdıqları və inkişaf etdirdikləri sivilizasiyanın izafiliyindən əziyyət çəkmişlər və əziyyət çəkməkdə davam edirlər.

İzafi sivilizasiya ədalətsizliyin mənbəyi olduğundan cəmiyyəti eybəcərləşdirir. Sivilizasiyalı xalqları bu eybəcərlikdən çox zaman sivilizasiyadan kənarda qalan xalqlar xilas etmışlər: Eramızdan öncə II əsrdə sivilizasiyalı qədim Yunanıstan özünün sivilizasiya səviyyəsinə hələ yetişməmiş Roma tərəfindən, V əsrdə artıq çoxdan sivilizasiyalaşmış Roma köçəri german və hun tayfaları tərəfindən VII əsrdə artıq elm və sənətdə böyük uğurlara nail olmuş Sasani İranı köçəri ərəblər tərəfindən sivilizasiyalı ədalətsizlik eybəcərliyindən xilas edilmişlər.

Oxşar fıkirlər XIX əsr rus mədəniyyətinə də aid edilə bilər.

XIX əsrin ikinci yarısından başlayaraq rus incəsənəti və bütün sivilizasiyası nə qədər çox inkişaf etmişdisə, rus gerçəkliyi bir o qədər də çox ədalətsizliklərə düçar olaraq eybəcərləşmişdi. Rusiya imperatorunda ədaətsizliyə qarşı hökmdar qətiyyətliliyinin tükənməsi ilə bağlı olaraq rus sivilizasiyasının tərəqqisi rus gerçəkliyinin ümumi inkişaf təmayülündən ayrılmış və müstəqil təkamül yoluna qədəm qoymuşdu. Rusiya həqiqi dəyərə malik olan nəhəng sivilizasiya yaratmışdı. Əgər bu sivilizasiyanın başlıca məzmununu rus ruhunun ideal təsvirindən ibarət olan klassik rus ədəbiyyatı – Puşkin, Dostoyevski, Tolstoy sənəti təşkil edirdisə, onun özəyini rus gerçəkliyinin nəzəri özünüdərkindən ibarət olan fəlsəfə - Solovyov, Bulqakov, Berdyayev təşkil edirdi. Rus incəsənətinin doğurduğu ideallarıın gerçəkləşdirilməsi yolunda rus fəlsəfəsinin yaratdığı ideyalar rus hakimiyyəti tərəfindən həyata keçirilməli və bununla da rus özünüdərki rus özünütəsdiqi ilə tamamlanmalı idi. Lakin rus hakimiyyətində bu ideallan gerçəkləşdirmək və Rusiyanın ozünütəsdiqinə nail olmaq qüdrəti artıq yox idi. Rusiya imperiyası ideallarla reallıqlar arasındakı ziddiyyətləri həll etmək iqtidarını özündə tapa bılmədiyi üçün bu ziddiyyətlər son nəticədə onun özünü məhv etdi. Həqiqi sivilizasiyadan kifayət qədər uzaq olan bolşeviklər sivilizasiyalı Rusiya ilə - Dostoyevski-Tolstoy-Berdyayev Rusiyası ilə ədalətsizlik və istismar içərisində boğulan Rusiyanı birləşdirdilər.

## Kontekst

XIII əsrdə isə dünya sivilizasiyaşının mərkəzinə çevrilmiş İslam dünyasını sivilizasiyalı ədalətsizlik eybəcərliyindən köçəri monqollar xilas etmişdilər. Monqol işğalları ərəfəsində Nizami vurğulayırdı ki,

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz.

Monqollar Nizaminin bu mülahizəsini öz cahangirlik qüdrəti ilə təkzib etdilər.

Nizami "İsgəndərnamə"sinin İsgəndəri, əslində Makedoniyalı İsgəndərin obrazı olmaqdan daha çox, Çingiz xanın surəti idi. Nizami İsgəndərinin əməlləri Makedoniyalı İsgəndərin əməllərindən daha çox, Çingiz xanın əməllərini xatırladır. Nizamidə biz İsgəndərin rusları və Çini fəth etdiyini görürük. Bizim eradan əvvəl IV əsrdə Rusiyamı vardı? Qədim yunanlar ruslarımı tanıyırdılar?

Əgər Nizami özünün erkən əsərlərində həqiqətə düşmən olan lakin sivili- zasiyanın dayağı olan Sasani hökmdarlarını - Nuşirəvanı, Xosrovu, Bəhram Guru və sivilizasiyaya meylli hökmdarın işinə yarayaraq sivilizasiyalı hökmdardan faydalanan Sasani təbəəsini, məsələn Şapuru tərənnüm edirdisə, "*İsgəndərnamə*"də artıq daha az sivilizasiyalı, lakin həqiqətə daha çox bağlı olan, İranı ədalətsiz sivilizasiya girdabından xilas edən qeyri-Sasani hökmdarının obrazı yaradılır.

Nizami "İsgəndərnamə"dən əvvəlki əsərlərinin müəllifi olmaqla vahid düşüncə axınının - Rudəki-Firdovsi-Ömər Xəyyam-Xaqani-***Nizami***-Sədi-Hafiz-Cami zənciri üzrə təkamül edən təfəkkür ənənələrinin tərkib hissəsi idi. Bu ənənələrin öz tarixi təyinatı, öz idealı vardı. Əgər Sasani imperiyasının dirçəldilməsinə yönələn meyl bu ənənələrin tarixi təyinatını müəyyənləşdirirdisə ədalətli şah obrazı onların həyat idealını ifadə edirdi. Əgər Xaqaninin "*Mədain xərabələri*"ndə Sasani sivilizasiyasına tarixi həsrət bədiiləşdirilmişdisə, Nizaminin "Sirlər xəzinəsi"ndə, "Xosrov və Şirin"ində, "Yeddi gözəl"ində bu ənənələr üçün son dərəcə səciyyəvi olan "ədalətli şah" obrazı yaradılmışdı. Kim idi bu ədalətli şah? Kim idi Xosrov? Kim idi Bəhram Gur? Kimlərdən ibarət idi bu "ədalətli şah"ların təbəələri? Kim idi Şapur? Xosrovu, hökmdarlıq kimi məsuliyyətli bir işi, xalqın əmin-amanlığının və firəvanlığının təminatı işini bir kənara ataraq eyş-işrətə uymuş hökmdarı səmimi olaraq necə vəsf etmək olar? Elçibəy öz prezidentliyi dövründə Gəncədə hansısa bir "sevgili"sinin adını çəkdiyi üçün bütün millətin gülüş hədəfinə çevrilməmişdimi? Məhəbbət düşkünü Xosrovu, eyş-işrət düşkünü Bəhram Guru necə ideallaşdırmaq olar? Dövlətin siyasi problemlərinin həlli ilə deyil, digər problemlərlə qayğılanan hökmdar siyasi oyuncağa çevrilir. Bu "ədalətli şah"a əlbəttə ki, Şapur kimi təbəə lazım idi. Şapur əsl sivilizasiya adamı idi - kamil sənətkar idi, zərif düşüncə sahibi idi, üstəlik, öz sənətkarlığından və dərrakəliliyindən lazımınca faydalana bilirdi. Şapur hökmdarın ən gizli ehtiyaclarını öyrənmişdi, sənətinin və dərrakəliliyinin gücü ilə hökmdar ehtiyaclaclarının ödənilməsinə can yandırırdı ki, əvəzində hökmdarın qüdrətindən lazımınca faydalana bilsin. Şapura məhz Xosrov kimi "ədalətli şah" lazım idi ki, onun bu aradüzəltmə işini lazımınca qiymətləndirə bilsin və əvəzini "ədalət"lə versin. Şapur, bu hiyləgər təbəə öz nökər məharəti və dərrakəliyi ilə haqsızlığa göz yuman və haqqa düşmən kəsilən, lakin həzz almağa tələsən hökmdar üzərində son dərəcə ustalıqla hökm edə bilirdi. Bu, ədalətin yalnız determinist anlaşılması əsasında öz işini quran hedonist ruhlu - və deməli, həm də rəiyyət ruhlu hökmdarın sayəsində mümkün ola bilərdi və mümkün oldu. *Ədalətin determinist anlaşılması, yəni "hər kəs yaxşılıqlarının əvəzində və ölçüsündə mükafatlandırılmalı, pisliklərinin ölçüsünda və əvəzində isə cəzalandırılmalıdır" prinsipi* üzərində qurulur və rəiyyət ruhunu ifadə edir.

Monqol işğallan ərəfəsində xilafət də Sasani dövrü qədər sivilizasiyalaşmışdı və ədalətsizləşmişdi.

Dünyada bir adam yoxdur ki, bu gün
Zövrqə, əyləncəyə uzaq görünsün

- deyən Nizami sivilizasiyalaşmış dövrünün hedonist ruhuna son dərəcə gözəl xarakteristika verirdi. Monqollar XIII əsr İslam Dünyasının sivilizasiyasını məhv etsələr də, ədalət hissini və səadətini bu dünyaya bir daha qaytardılar.

**Adil Əsədov**
**Fəlsəfə elmləri doktoru, professor**

**Nizaminin Xəmsəsi ətrafında fəlsəfi improvizasiyalar: "İsgəndərnamə"**

**Xülasə**

Müəllif mıqalədə Nizamini İntibah şairi olaraq təqdim edir. Müəllif belə bir məntiqdən çıxış edir ki, Nizami ona görə İntibah şairi idi ki, diqqətini tarixin orta əsr qatından irəliyə yönəltmişdi, diqqət mərkəzində daha çox tarixin islamaqədərki qatları və xristianlığaqədərki qatları dururdu.

Məqalədə Nizami həm də bəşəriyyət tarixində daim təkrarlanan sivilizasiya-mədəniyyət zəncirinin bir həlqəsi olaraq araşdırır.

**Адиль Асадов,**
**Доктор философских наук, профессор**

**Философские импровизации вокруг *Хамсы* Низами: "Искендернаме"**

**Резюме**

Автор анализирует Низами как поэта эпохи Возрождения. Автор следует логике, что Низами потому был поэтом эпохи Возрождения, что развернул свое внимание от Средневековой истории в современность: в центре внимания находились приверженики доисламской и дохристианской истории.

Автор рассматривает Низами как звено в цепи «культура-государство-цивилизация», которая постоянно повторяется в истории человечества.

**Adil Asadov,**
**Doctor of philosophical sciences, professor**

**Philosophical improvisations around Khamsa by Nizami: "Iskandarnamah"**

**Abstract**

Author analyzes Nizami as a poet of the Renaissance. The author follows the logic that Nizami was a poet of the Renaissance due to the fact that he turned his attention from Medieval history to modernity; the adherents of pre-Islamic and pre-Christian history were in the spotlight.

The author considers Nizami as a link in the "culture-state-civilization" chain, which is constantly repeated in the history of mankind.